# MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1994-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi tamam olur. Dünya klassikləri sırasında ensiklopedik biliyi, dəyərli bədii-fəlsəfi irsi ilə seçilən ölməz söz ustası Füzulinin Azərbaycan, ərəb və fars dillərində yaratdığı əsərlər ümumbəşəri mənəvi dəyər və sərvətlər xəzinəsinə əbədi daxil olmuşdur.

Məhəmməd Füzulinin 500 illik yubileyinin əsaslı hazırlanması və dövlət səviyyəsində keçirilməsi şairin xatirəsinə dərin ehtiram və məhəbbətin ifadəsi olmaqla Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin bütün dünyada təbliği və tərənnümünə xidmət edir.

Məhəmməd Füzulinin dünya mədəniyyəti və ədəbiyyatı tarixindəki mövqeyini, onun yubileyinin beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq dahi şair və mütəfəkkirin 500 illiyinin layiqincə hazırlanması və keçirilməsi məqsədi ilə **qərara alıram:**

1. Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri:**

Heydər **Əliyev** — Azərbaycan Respublikasının Prezidenti

**Dövlət Komissiyası sədrinin müavinləri:**

Elçin **Əfəndiyev** — Azərbaycan Respublikası Baş nazirinin müavini
Eldar **Salayev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti
Anar **Rzayev** — Azərbaycan Yazıçılar Birliyinin sədri

**Dövlət Komissiyasının üzvləri:**

Qabil **Hüseynli** — Azərbaycan Respublikasının dövlət müşaviri
Hidayət **Orucov** — Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri
Fatma **Abdullazadə** — Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar

siyasət şöbəsinin müdiri

İsmayıl **Sadıqov** — Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət və xalq təhsili şöbəsinin müdiri

Həsən **Həsənov** — Azərbaycan Respublikasının Xarici İşlər nazíri

Lidiya **Rəsulova** — Azərbaycan Respublikasının təhsil naziri

Polad **Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

Sabir **Rüstəmxanlı** — Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Babək **Məmmədov** — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Ramiz **Rizayev** — Moskva şəhərində Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi

Allahşükür **Paşazadə** — Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri

Nazim **İbrahimov** — "Azərbaycan" nəşriyyatının direktoru

İsmayıl **Vəliyev** — "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru

Vaqif **Rüstəmov** — AzərTAC-ın baş direktoru

Ziya **Bünyadov** — Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru

Aslan **Aslanov** — Azərbaycan Respublikası Elmlər Akademiyası tarix, iqtisadiyyat, fəlsəfə və hüquq bölməsinin akademik-katibi, fəlsəfə və hüquq İnstitutunun direktoru

Bəkir **Nəbiyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Kamal **Talıbzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki

Bəxtiyar **Vahabzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Əlyar **Səfərli** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Fuad **Qasımzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

İqrar **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, Tarix İnstitutunun direktoru

Rəfael **Allahverdiyev** — Bakı şəhər İcra hakimiyyətinin başçısı

Kamal **Abdullayev** — Azərbaycan Mədəniyyət Fondunun sədri

Çingiz **Abdullayev** — Azərbaycan Yazıçılar Birliyinin katibi

Tofiq **Quliyev** — Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Fərhad **Bədəlbəyli** — Azərbaycan Musiqi Xadimləri İttifaqının sədri

Rasim **Balayev** — Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi

Hacı **Hacıyev** — Azərbaycan Jurnalistlər Birliyinin sədri

Həsənağa **Turabov** — Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti

Fərhad **Xəlilov** — Azərbaycan Rəssamlar İttifaqının sədri

İlham **Əliyev** — Azərbaycan Memarlar İttifaqının sədri

Oqtay **Mirqasımov** — "Azərkinovideo" İstehsalat Birliyinin sədri

İsmayıl **Şıxlı** — xalq yazıçısı

Nəbi **Xəzri** — xalq şairi

Balaş **Azəroğlu** — xalq şairi

Xəlil **Rza** — xalq şairi

İsa **Hüseynov** — xalq yazıçısı

Arif **Məlikov** — xalq artisti, bəstəkar

Cabir **Novruz** — xalq şairi

Yusif **Səmədoğlu** — yazıçı

Rüstəm **İbrahimbəyov** — yazıçı, kinodramaturq

Ramiz **Fətəliyev** — kinodramaturq, "Azərbaycanfilm" kinostudiyasının direktoru

Sabir **Əhmədli** — "Ədəbiyyat" qəzetinin redaktoru

Yaşar **Qarayev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Ağamusa **Axundov** — Azərbaycan Respublikası Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru

Cahangir **Qəhrəmanov** — Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları İnstitutunun direktoru

Vasim **Məmmədəliyev** — Bakı Dövlət Universitetinin kafedra müdiri

Rüstəm **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun şöbə müdiri

Samət **Əlizadə**— Bakı Dövlət Universitetinin professoru

Azadə **Rüstəmova** — Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru

Vəcihə **Feyzullayeva** — Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya elmləri namizədi

Mail **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları İnstitutunun elmi işçisi.

2. Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasına müvafiq ştat vahidləri ayırmaqla üç nəfərdən ibarət işçi qrup yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 avqust tarixli 102 №-li sərəncamı öz qüvvəsini itirmiş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 16 mart 1994-cü il
№ 118